BUILDING TRUST

MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# Sika® ViscoCrete®-1022

Superaxışqanlaşdırıcı Beton Əlavəsi

## TƏSVİR

Sika® ViscoCrete®-1022, beton və sement bağlayıcılı qarışımlar üçün 3-cü nəsil beton əlavəsidir.

## İSTİFADƏ YERLƏRİ

- Hazır beton istehsalında
- Yüksək keyfiyyətli beton tələblərinin qarşılanması və istehsalında
- İsti və küləkli hava şəraitlərində uzun işlənilmə tələblərində
- Hamar səthli, sıx və keçirməz beton istehsalında
- Döşəmə plitələri, bünövrələr, divarlar, kirişlər və sütunlar kimi mürəkkəb və incə elementlərin, sıx armaturlu betonlama işlərində
- Özündən yerləşməli beton (SCC) istehsalında

## ÜSTÜNLÜKLƏRİ

Sika® ViscoCrete®-1022, ikiqat təsirli beton əlavəsidir. İstifadə edildikdə bağlayıcı hissəciklərinə səthi adsorbsiya və sterik təsirlər ilə bərabər yayılma və paylanmanı təmin edir. Nəticə olaraq aşağıdakı xüsusiyyətlərin əldə edilir:

- Son dərəcə yüksək qarışım suyu azaldılması, yüksək sıxlıq və yüksək müqavimət ilə nəticələnir
- Artan şaxta müqaviməti
- Xloridsizdir, möhkəmləndirici dəmir üçün zərərsizdir
- Betonun karbonatlaşma sürətinin azaldır
- Betonun büzülmə meylinin azalması
- Beton vibratorlarına ehtiyac duymur, özündən yerləşmə xassəlidir

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

- AZS EN 934-2:2024 standardının tələblərini qarşılıyır

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Modifikasiya olunmuş Polikarboksilat tərkibli əlavə |
| **Qablaşdırma** | Tökmə -Yük tankeri , İBC 1000kg |
| **Görünüş və rəng** | Sarımtıl, maye |
| **Saxlama Müddəti** | İstehsal tarixindən etibarən 12 ay. |
| **Saxlama Şərtləri** | Məhsul bağlı, açılmamış qablaşdırmada, quru şəraitdə +5°C ilə +35°C arasında olan temperaturda, doğru anbarlama şərtlərində saxlanmalıdır. Birbaşa günəş işığından və dondan qorunmalıdır. Uzun müddət saxlanılarsa istifadədən öncə qarışdırılmalıdır. |
| **Sıxlığı** | 1.05-1.09 kg/l |
| **pH-Dəyəri** | 4-7 |
| **Cəmi Xlorid ion miqdarı** | Maks. 0.1 %, Xlorid yoxdur (EN 480-10) |

# TƏTBİQ MƏLUMATI

| | |
|---|---|
| **Tövsiyyə olunan doza** | Tələb olunan beton xüsusiyyətlərindən asılı olaraq:<br>▪ Plastik beton: Bağlayıcı ağırlığının 0.8 -1.5%-i, (100kg sement üçün 800-1500gr əlavə)<br>▪ Özü yerləşən beton: Bağlayıcı ağırlığının 1.5-2.2 %-i ( 100kg sement/ bağlayıcı üçün 1500-2000gr)<br>Konsistensiyanı tənzimləyərkən beton əlavəsinin yüksək su kəsicilik xassəsi nəzərə alınmalı və qarışığa həddindən artıq su əlavə olunmamalıdır. |
| **Uyğunluq** | Sika® ViscoCrete®-1022 birlikdə istifadəyə uyğun Sika® əlavələri:<br>▪ Sika®Aer / SikaPump® / SikaRapid® / Sika®FerroGard 901<br>▪ SikaFume® HR / Sika Retarder® / Sika®Antifreeze /Sika®Fibre<br>Birlikdə istifadədən öncə məhsulların çalışması hər zaman sınaq edilməlidir. |
| **Əlavə Olunma** | Sika® ViscoCrete®-1022, beton zavodda istehsal zamanı qarışım suyu ilə birlikdə əlavə olunmalıdır, yük maşını qarışdırıcısına əlavə olunması tövsiyyə olunmur. |

# MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

# DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Sika® ViscoCrete®-1022 əlavəsindən istifadə edərkən uyğun beton qarışıq dizaynı nəzərə alınmalı və istifadə olunacaq beton xammalları ilə sınaqdan keçirilməlidir.
- Quru sement  qarışımına əlavə edilməməlidir.
- Qarışdırma suyu ilə birlikdə əlavə edilməlidir.
- Öz-özünə yerləşməli beton istehsal etmək üçün uyğun beton qarışım dizaynı nəzərə alınmalıdır.
- Beton istehsalı və tətbiqindən öncə sınaqlar aparılmalıdır.

# ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

# TƏTBİQ TƏLİMATLARI

## TƏTBİQ

İstehsal və yerləşdirmə ilə bağlı düzgün betonlama təcrübəsinin standart qaydalarına əməl edilməlidir. Müvafiq standartlara istinad edilməlidir. Təzə betonun yerləşdirilmiş düzgün kürlənməsi təmin edilməlidir.

## AVADANLIQ TƏMİZLİYİ

İstifadədən dərhal sonra bütün alətləri və tətbiq avadanlıqlarını su ilə təmizləyin. Sərtləşmiş / bərkimiş material yalnız mexaniki şəkildə çıxarıla bilər.

# HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslanan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12